**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№367/1** **30 iyul 2024-cü il**

**Auditorlar Palatasının struktur bölmələrinin 2024-cü ilin I yarımili üzrə iş fəaliyyətinin yekununa dair hesabatı barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.12-ci "Auditorlar Palatasının struktur bölmələrinin 2024-cü il üzrə fəaliyyəti barədə rüblük hesabatların hazırlanması, onların təhlili və tövsiyələrin verilməsi" bəndinə əsasən hazırlanmış Auditorlar Palatasının struktur bölmələrinin 2024-cü ilin I yarımili üzrə iş fəaliyyətinin yekununa dair hesabatı barədə Aparatın rəhbəri Q.Bayramovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının struktur bölmələrinin 2024-cü ilin I yarımili üzrə iş fəaliyyətinin yekununa dair hesabatı bəyənilsin (arayış və hesabat əlavə olunur).

2. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki:

2.1. Hesabatların müəyyən edilmiş müddətlərdə, keyfiyyətli və təsdiq edilmiş təlimata uyğun olaraq təqdim olunmasını təmin etsinlər;

2.2. Auditorlar Palatasının 2024-cü il üzrə iş planında, Palata Şurasının qərarlarında, Palata sədrinin əmr, sərəncamlarında və plandankənar işlərdə nəzərdə tutulmuş tapşırıqların vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

2.3. 2024-cü ilin I yarımili ərzində icra edilməmiş aşağıdakı işlərin icrasını təmin etsinlər:

2.3.1. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimova və rəis müavini B.Qasımovaya tapşırılsın ki, iki ay müddətində Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.4-cü "Təqdim olunmuş qanun layihələrinin müvafiq qurumlarla razılaşdırılmasının başa çatdırılması" bəndinin icrası təmin edilsin;

2.3.2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən B.Orucova, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimova və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazova tapşırılsın ki, bir ay müddətində Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 2.4-cü "Auditorun şəxsi kabineti sistemində ƏL/TMM üzrə hesabat bölməsinin yaradılması bəndinin icrası təmin edilsin;

2.3.3. Auditorlar Palatası sədrinin "Auditorun səsi" mövzusunda onlayn müzakirənin təşkil edilməsi barədə" 2024-cü il 12 iyul tarixli 1/26 nömrəli sərəncamı ilə yaradılmış işçi qrupuna (S.Gülməmmədov) tapşırılsın ki, 2024-cü ilin noyabr ayının 3-cü ongünlüyündə Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.7-ci "Auditorun səsi" mövzusunda onlayn müzakirənin təşkili" bəndinin icrası təmin edilsin.

2.4. 2024-cü ilin I yarımili ərzində icrası başa çatmamış aşağıdakı işlərin icrasını başa çatdırsınlar:

2.4.1. Məsul şəxslərə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Ş.Əsgərova, B.Abbasov) tapşırılsın ki, bir ay müddətində Palata Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü ildə fəaliyyətinin yekunlarına dair hesabat barədə" 2024-cü il 09 aprel tarixli 364/1 nömrəli qərarının 2-ci, 3-cü, 4-cü və 6-cı bəndlərinin icrasını başa çatdırsınlar.

2.4.2. İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova, N.Əlisoy) tapşırılsın ki, üç həftə müddətində Palata Şurasının "Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmiş materiallara dair arayış barədə" 2024-cü il 09 aprel tarixli 364/9 nömrəli qərarının 2-ci "Palatanın üzvləri arasında Auditorlar Palatasının internet səhifəsinin təkmilləşdirilməsinə dair sorğunun keçirilməsi və nəticələrinə dair təklif və tövsiyələrin hazırlanaraq Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin" bəndinin icrası başa çatdırılsın.

2.4.3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, bir ay müddətində Palata Şurasının "Auditor təşkilatlarının və sərbəst auditorların 2023-cü ilin yekunu üzrə hesabatlarının nəticələrinə dair hazırlanmış icmal-tövsiyələr barədə" 2024-cü il 09 aprel tarixli 364/12 nömrəli qərarının 6-cı "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən "Auditorun şəxsi kabineti" sistemində qeydiyyata alınmış müqavilələr "ləğv olunub" statusuna keçirildikdə həmin müqavilələrin ləğv olunması səbəbinin məcburi göstərilməsi funksionallığının sistemə daxil olunması təmin edilsin" bəndinin icrası başa çatdırılsın.

3. Məsul şəxslərə (F.Qarayev, B.Orucov, N.Talıbov, N.Abbaslı, Z.Almazov) tapşırılsın ki, iki ay müddətində Palata sədrinin "600 saylı (düzəliş edilmiş) "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi)" Beynəlxalq Audit Standartının tərcüməsi, peşə redaktəsi və tətbiqi barədə" 2024-cü il 26 aprel tarixli 1/15 nömrəli sərəncamın icrasını başa çatdırsınlar.

4. Məsul şəxslərə (Q.Bayramov, S.Mirzəyeva) tapşırılsın ki, Palata sədrinin "Azərbaycan Respublikasının Auditorlar Palatasında arxiv işinin aparılması haqqında Təlimat"ın təsdiq edilməsi barədə" 2024-cü il 6 may tarixli 18 nömrəli əmrinin icrası yeni Təlimat hazırlandıqdan 10 gün sonra Palatanın əməkdaşlarına seminarın keçirilməsi təmin edilsin.

5. Palatanın icraçı direktoru S.Gülməmmədova və Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, iki ay müddətində Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimovla birlikdə "Azərbaycan Respublikasının Auditorlar Palatasında arxiv işinin aparılması haqqında Təlimat"ın yenidən işlənib hazırlanmasını və Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə razılaşdırılmasını təmin etsinlər.

6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**